### Heydər Əliyev - 100

# Müstəqil Azərbaycan dövlətinin qurucusu və xilaskarı

Danılmaz bir həqiqətdir ki, yaşadığımız dünyada tarixi hadisələr məhz insan fəaliyyəti ilə bağlıdır. Yer üzündə tarixçilər, tarix haqqında yazanlar, bu və ya digər nailiyyəti və ya fəaliyyəti ilə bağlı tarixə düşən şəxslər çox olub, lakin tarixi yaradanlar nadir şəxslər olub. O nadir şəxslərdən biri də müasir Azərbaycanın tarixini yaradan, müstəqil dövlətimizin qurucusu, eyni zamanda xilaskarı ulu öndər Heydər Əliyevdir.

Məhz ümummilli liderimiz Heydər Əliyevin dəmir iradəsi, müdrikliyi, uzaqgörənliyi və zəngin dövlətçilik təcrübəsi sayəsində dövlətimiz dünya ölkələri sırasında layiq olduğu zirvəyə yüksəlmiş və onun siyasi kursunun möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmiz müasir dövrdə regionun aparıcı dövlətlərindən birinə çevrilmişdir.

1969-1982-ci illərdə keçmiş SSRİ-nin dönəmində Azərbaycan Respublikasının rəhbəri olan, sonrakı illərdə SSRİ kimi nəhəng dövlətin siyasi elitası zirvəsinə yüksəlmiş ulu öndər Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində geridə qalmış respublikalardan biri sayılan Azərbaycan ön sıralara çıxmışdır. Onun rəhbərliyi ilə respublikamızda geniş miqyaslı tikinti-quruculuq işləri həyata keçirilmiş, ölkənin sənayesində və kənd təsərrüfatında, mədəniyyət və təhsil sahələrində böyük uğurlar əldə edilmiş, yeni-yeni yaşayış massivləri salınmış, yollar tikilmiş, çoxsaylı müəssisələr, xəstəxanalar, təhsil ocaqları inşa edilmiş, ölkəmizin neft-kimya sənayesi və iqtisadiyyatının digər sahələri uğurla inkişaf etdirilmişdir.

1990-cı illər Azərbaycanın tarixinə ağır faciələrin yaşandığı bir dövr kimi daxil olmuşdur. Həmin vaxt Sovetlər birliyi dağılanda 15 ittifaq respublikası arasında Azərbaycan yeganə ölkə olmuşdur ki, ərazisinin 20 faizi işğal edilmiş, bununla yanaşı minlərlə insanlarımız həlak olmuş, 1 milyona yaxın soydaşlarımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

Respublikamızın müstəqilliyinin ilk illərində hakimiyyətdə olan qüvvələrin səriştəsiz fəaliyyəti nəinki torpaqların itirilməsinə, həmçinin ictimai həyatın müxtəlif sahələrində hərc-mərcliyin baş alıb getməsinə, iqtisadiyyatın çökməsinə, mütəşəkkil cinayətkar dəstələrin, silahlı qruplaşmaların əmələ gəlməsinə şərait yaratmış, ölkə daxilində qeyri-sabit və təhlükəli vəziyyətin əmələ gəlməsinə gətirib çıxarmışdır.

Müstəqillik yoluna yenicə qədəm qoyan Azərbaycanda dövlətçiliyin qorunub saxlanması, ölkənin parçalanmasının qarşısının alınması üçün ölkə rəhbərliyinə təcrübəli, qətiyyətli siyasi liderin gətirilməsinə ciddi zərurət yaranmış və bu məqamda xalqımız haqlı olaraq böyük oğluna müraciət etmişdir.

Sərhəd bölgələri təcavüzkar Ermənistan tərəfindən işğala məruz qalmış, nizami ordusunu yaratmağa macal tapmamış, iqtisadiyyatı dağılmış, anarxiya, xaos baş alıb gedən bir ölkəyə rəhbərlik etmək çox mürəkkəb və məsuliyyətli məsələ idi. Belə bir məsuliyyətin öhdəsindən yalnız Heydər Əliyev gələ bilərdi və gəldi də.

Görkəmli fransız mütəfəkkiri Volter demişdir ki, "dövlətin xilası üçün bir dahi insan kifayətdir". Bu kəlamın həqiqət olması bir daha öz təsdiqini Müstəqil Azərbaycan Respublikasını parçalanmaqdan və dağılmaqdan xilas edən, bu yolda vətəni və xalqı qarşısında misilsiz xidmətlər göstərmiş ulu öndər Heydər Əliyevin simasında tapmışdır.

1993-cü ildə milyonlarla insanın arzusunu ifadə edərək Bakıya gəlməklə Heydər Əliyev ölkəmizin xilaskarı oldu, ölkədə hökm sürən mürəkkəb hərbi və siyasi böhran vəziyyətində öz həyatını təhlükəyə atmaqla qətiyyəti və müdrikliyi ilə milyonlarla vətəndaşlarımızı öz ətrafında birləşdirməyə, respublikamızı siyasi böhrandan çıxarmağa, qardaş qırğınının, vətəndaş müharibəsinin qarşısını almağı bacardı, müdrik və praqmatik addımlar sayəsində ölkədə hökm sürən dağıdıcı proseslərin neytrallaşdırılmasına nail oldu. Azərbaycanı parçalamaq, torpaqlarına sahib çıxmaq, ölkəni öz forpostuna çevirmək istəyənlər öz niyyətlərinə çata bilmədilər. Bir sözlə, ümummilli lider Heydər Əliyev Azərbaycanı həm vətəndaş müharibəsindən, qarşıdurmadan və məhv olmaq təhlükəsindən xilas etdi, həm də onu dirçəliş yoluna çıxardı.

Ümummilli lider Heydər Əliyevin xalqımızın böyük əksəriyyətinin etimadını qazanması 1993-cü il oktyabrın 3-də ölkəmizdə keçirilən prezident seçkilərində 98,8 faiz səslə Azərbaycan Respublikasının Prezidenti seçilməsində özünü göstərdi. Bundan sonra ulu öndər Heydər Əliyevin gərgin fəaliyyəti və səyləri sayəsində ölkəmizdə ictimai-siyasi sabitlik təmin edildi və sosial-iqtisadi vəziyyət yaxşılaşdırıldı. 1994-cü il mayın 12-də cəbhədə atəşkəsin əldə edilməsindən sonra dövlətçiliyin möhkəmləndirilməsi, nizami ordu quruculuğu, eləcə də ölkə həyatının bütün sahələrində dinamik inkişafın təmin edilməsi üçün zəruri addımlar atıldı. Ardıcıl və sistemli tədbirlərin nəticəsində ölkədə əmin-amanlıq yarandı, sabitlik bərqərar oldu, azad bazar iqtisadiyyatına keçidlə bağlı genişmiqyaslı islahatlara başlanıldı.

1994-cü il sentyabrın 20-də isə Azərbaycanın ən yeni tarixində dönüş nöqtəsi olan neft müqaviləsi imzalandı. "Əsrin müqaviləsi" adlandırılan bu Saziş ölkəmizin gələcək inkişafına və təhlükəsizliyinə, eyni zamanda qüdrətli ordu quruculuğuna etibarlı zəmin yaratdı.

Müasir Azərbaycan dövlətinin memarı və qurucusu olan ümummilli lider Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətlərindən biri də onun tərəfindən uğurlu dövlət quruculuğu prosesinin əsasının qoyulmasıdır. Onun rəhbərliyi ilə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesi başlandı, milli həmrəylik və bütövlüyü təmin edən ideologiyanın yaradılması üçün davamlı siyasi-hüquqi islahatlar həyata keçirildi. Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi, Məhkəmə islahatlarının həyata keçirilməsi, Konstitusiya Məhkəməsinin və digər mühüm təsisatların yaradılması, İnsan hüquqları üzrə Avropa Konvensiyasına qoşulması ölkədə demokratikləşmə prosesinin irəliyə aparılmasında mühüm rol oynadı. Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruldu, vətəndaş cəmiyyətinin bərqərar edilməsi istiqamətində ciddi addımlar atıldı.

Beləliklə, 1993-2003-cü illər ərzindəki fəaliyyəti nəticəsində ulu öndər Heydər Əliyev Azərbaycanı yalnız parçalanmaqdan, dövlət çevrilişlərindən, özbaşınalıqlardan xilas etmədi, həm də xalqımıza yeni, firavan, ildən ilə çiçəklənən müstəqil Azərbaycanı bəxş etdi.

Ölkəmizdə ictimai-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində ümummilli lider Heydər Əliyevin inkişaf strategiyası, onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti dayanır.

Bütün bunların nəticəsidir ki, müstəqil Azərbaycan 1993-cü ildən bu günə qədər inkişaf yolunda əmin addımlarla irəliləyərək, möhtəşəm nailiyyətlər əldə edərək yeni zirvələr fəth etdi, transmilli layihələrə imza atdı, faktiki müharibə şəraitində olmasına baxmayaraq iqtisadiyyatını inkişaf etdirdi, güclü orduya sahib oldu və həmin ordu müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında 44 günlük müharibədə düşmən üzərində zəfər qazanaraq torpaqlarımızı işğaldan azad etdi.

Bu müharibə zamanı yerinə yetirilməsi üçün aylarla müddət tələb olunan hərbi-taktiki məsələlərin həllinə Milli Ordumuzun 44 gün ərzində nail ola bilməsi məhz uzun illər ərzində təməli Azərbaycanın ümummilli lideri Heydər Əliyev tərəfindən 1993-cü ildə qoyulmuş və müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən davam etdirilmiş Azərbaycanda ciddi ordu quruculuğu sayəsində mümkün olmuşdur.

Müasir zamanda dünyada cərəyan edən və ayrı-ayrı ölkələrin müharibələrə, daxili qarşıdurmalara cəlb edilməklə parçalanması, iqtisadiyyatlarının çökməsi ilə müşayiət olunan mürəkkəb siyasi və iqtisadi proseslər ulu öndərin dövlətimiz üçün müəyyənləşdirdiyi siyasi kursun proqressiv və düzgün olduğunu bir daha təsdiq edir.

Bu gün Azərbaycan Prezidentinin ətrafında sıx birlik nümayiş etdirən xalqımız əmindir ki, əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən yaradılan müstəqil dövlətimizin inkişafı etibarlı əllərdədir. Ulu öndər Heydər Əliyev ideyaları möhtərəm Prezidentimiz İlham Əliyev və birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən layiqincə davam etdirilir.

Heydər Əliyev həmişə azərbaycanlı olması ilə fəxr etdiyi kimi, Azərbaycan xalqı daim fəxr edəcək ki, onun Heydər Əliyev kimi ulu öndəri vardır.

**Nazim BABAYEV,**
**Qəbələ rayon prokuroru,**
**baş ədliyyə müşaviri.**

# Bu... təsadüfə nə deyim axı...

Alın yazısı deyilən bir fikir var: ona inananlar da var, eh... deyib ötənlər də. Ancaq həyatda qarşılaşdığın hadisələr alın yazısı fikrinin həqiqət donunu apaydın göstərir. İnsan sabahı nələr gözlədiyini irəlicədən hiss edir və bu günün işini ağılla, düşüncə ilə tarazlayır. Məsələn, ehtiyat tədbirlərini görür; övladını tərbiyədə, havanın, suyun, soyuq və istinin istifadəsində, bəzi siyasi və şəxsi məsələlərin həllində. Ancaq təsadüflərə sərhəd qoyula bilmir. Xoş və bəd təsadüflər insan ömrünə hakim, insan ömrü onlara məhkumdur. Alın yazısı fikri də təsadüflərin yaranma səbəbidir.



Halal zəhmətlə böyüyən, qarşılaşdığı hər çətinliyə sabahkı ümidin işığıyla baxan Nəzakət və Yulət Əliyevlər özlərinə isti ocaq qurdular. 2 oğul övladları oldu və onları da halal zəhmət, halal çörəklə böyütdülər: vətənpərvər ruhda, düşüncəli, zəhmətkeş, mehriban!

Vətən oğulları düşmən xəyanətinin qurbanı olarkən vətənpərvər oğulların düşmənə nifrət və qisas hissi artdı... Müharibə başlanması abı-havasını duyan kimi Sakit könüllü döyüşlərə yollandı, Maqsud yaşadığı yad ölkədən Vətənə qayıdaraq müharibədə iştirak etmək və əsil hərbçi olmaq istədi. Çünki Vətən ona oğul demişdi...

Qəzetimizin 28 oktyabr 2022-ci il tarixli nömrəsində "Göyün, yerin sevinci" sərlövhəli materialda qazi Maqsud Yulət oğlu Əliyev haqqında yazı getmişdi. Qazini qarşılama mərasimində iştirak etmiş, ailəsi və qohumları, qonşuları vətənpərvər döyüşçü oğullarımızın sevincinin hədsizliyinin şahidi olmuşduq.

Maqsud Əliyev 1994-cü ildə Böyük Pirəli kəndində doğulmuşdur. 2001-2012-ci illərdə kənd orta məktəbində təhsil almışdı. 2012-ci ilin oktyabrında həqiqi hərbi xidmətə çağırılmış, 2014-cü ildə xidməti borcunu başa vurmuşdu. Xidmətdən sonra başqa ölkədə əmək fəaliyyətinə başlamışdı. 2020-ci ilin sentyabrında qisas müharibəsi başlanan zaman o öz ölkəsinə qayıtmaq və könüllü olaraq müharibədə iştirak etmək üçün ərizə vermişdi.

Onun qardaşı Sakit Əliyev də könüllü olaraq müharibədə iştirak etmiş və yaralanmışdı.

Maqsud Əliyev 2021-ci ilin yanvar ayından etibarən hərbi xidmət kurslarına başlamışdı. 2 ay Türkiyədə komandanlıq kurslarında hərbi biliyini artırmışdı. O, əsil hərbçi kimi yetişmək, Vətəninə xidmət etmək arzusunda idi.

Maqsud Əliyev Fərrux dağının alınmasında, Kəlbəcər - Göycə mahalı istiqamətində 2021-ci ilin noyabrında Laçın istiqamətində olan antiterror əməliyyatlarının qarşısının alınmasında iştirak etmişdi. 2022-ci ilin sentyabrında baş verən iğtişaşlarda döyüşərək sol gözündən, burun, çənə nahiyəsindən, sağ qolundan ağır yaralanmışdı. Sol gözünün görmə qabiliyyətini tamamilə itirən qazinin sağ gözündə də görmə qabiliyyəti 50 - 60 faiz idi. O, müalicə alır, həyata adaptasiya olmağa çalışırdı. O əsgər geyimi ilə evə qayıdarkən qarşılayan kiçik övladlarının firavan böyüməsi və işləmək məqsədi ilə Goranboy rayonunda işə başlamaq istəyirdi. Başlamışdı da... Ancaq alın yazısı... Adi bir təsadüf onun faciəli şəkildə həyatını itirməsinə səbəb oldu.

Məmməd Araz demiş:

*Bu bəd təsadüfə nə deyim axı,*
*Bir sevinc kədərə dönəcək imiş.*
*Bir qəlbin alışan ümid çırağı*
*Bir anın içində sönəcək imiş...*

Bəli, igid qazimizin dəm qazından boğularaq həyatını itirməsi yalnız onun əzizlərini deyil, onu tanıyanları, döyüş yoldaşlarını, eləcə də rayon əhalisini, bütün vətənpərvər insanları sarsıtdı.

Həyatın gözəlliklərinə Vətənə qurban verdiyi gözünün və onun acısını çəkən sağ gözünün zəif işığıyla baxırdı Maqsud. Övladları onun varlığına "söykənərək" dünyanın gərdişindən xəbərsiz yaşayırdılar. Can ağrılarını qazi oğullarının yaşaması ilə unudan ata-ana həyatda dayanma - yaşama gücü üçün "çarpışırdılar". Maqsudun həyat yoldaşı çətin həyat yolunun bir sınaq olduğunu, həyat yoldaşının görən nurlu gözü olacağının arzusu ilə övladlarını böyüdürdü, yaşamına şükür edirdi. Qardaşı Sakit Maqsudunun varlığı, yanında olması fərəhi ilə yaşayırdı. Ancaq adi bir təsadüf hər kəsin qəlbində, sinəsində bir ocaq yandırdı... Dünyaların yıxdı, arzularını çiliklədi... Canlı şəhid olan qazi balamız ölümün qurbanı oldu...

Göyün, yerin sevincini yellər apardı... Ancaq insan güclü bir varlıqdır. Maqsud yadigarlarının sabahkı, düzənli həyatı üçün yaşamaq lazım!

**BİBİXANIM.**

# "Sən elə bir zirvəsən" müsabiqəsi

Qəbələ rayon Mədəniyyət Mərkəzində ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən "Sən elə bir zirvəsən" adlı bədii qiraət müsabiqəsi keçirilib. Müsabiqənin keçirilməsində məqsəd ölkəmizin müstəqilliyinin qorunub möhkəmləndirilməsinə, demokratik hüquqi dövlətin qurulmasında ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərini gənclərə aşılamaq, onların asudə vaxtlarını səmərəli təşkil etmək və istedadlı gəncləri üzə çıxarmaqdan ibarətdir. Müsabiqədə müxtəlif yaş qrupları üzrə 23 uşaq iştirak edib. İsmayıl bəy Qutqaşınlı adına Xalq teatrının üzvlərindən ibarət münsiflər heyətinin on ballıq səsverməsinə əsasən I yerə Abdurahmanova Gülnar Ülvi qızı, II yerə Musalı Aydan Elşad qızı, III yerə Abdurahmanova Ayla Ruslan qızı layiq görülüb. Qaliblər Mədəniyyət Mərkəzi tərəfindən Fəxri Fərmanla təltif olunublar.

**"Qəbələ"**